Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyi

Naxçıvan Dövlət Universiteti

Azərbaycan Respublikası Elm Və Təhsil Nazirliyi Botanika İnstitutu

Azərbaycan Botaniklər Cəmiyyəti İctimai Birliyi

Biomüxtəlifliyin dayanıqlığının təmin edilməsində yeni çağırışlar (COP29)

YAŞIL DÜNYA VƏ İNSAN SAĞLAMLIĞI

Beynəlxalq Elmi-Praktiki Konfrans

3-4 iyun 2024

Naxçıvan şəhəri

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr edilmiş

“BİOMÜXTƏLİFLİYİN DAYANIQLIĞININ TƏMİN EDİLMƏSİNDƏ YENİ ÇAĞIRIŞLAR (COP29)-YAŞIL DÜNYA VƏ İNSAN SAĞLAMLIĞI”

adlı Beynəlxalq Elmi-Praktiki Konfransın Materialları

Təşkilatçı qurumlar: *Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi*

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Naxçıvan Dövlət Universiteti

AR ETN Botanika institutu

Azərbaycan Botaniklər Cəmiyyəti İctimai Birliyi

MÜNDƏRİCAT

Naxçıvan Muxtar Respublikasının bioloji müxtəlifliyinin müasir vəziyyəti və istifadə imkanları

Talıbov T.H., İbrahimov Ə.M., Seyidova H.S. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA FABACEAE LINDL. FƏSİLƏSİNİN NADİR VƏ MƏHVOLMA TƏHLÜKƏSİNDƏ OLAN NÖVLƏRİ

İbadullayeva S.C., Zülfüqarova P.V., Mürsəl N. AZƏRBAYCAN FLORASINDA APIACEAE LINDL. FƏSİLƏSİNİN ENDEMİKLİYİ

Quliyev Ə.G. COP 29 - AZƏRBAYCANDA QLOBAL İQLİM DƏYİŞMƏSİNİN İLKİN TƏSİRİ NAXÇIVANDA ÖZÜNÜ GÖSTƏRMƏKDƏDİR

Talıbov T.H., Məmmədova Ü.M. NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILMIŞ PİŞİKOTULAR YARIMFƏSİLƏSİNİN MÜHAFİZƏ STATUSLU NÖVLƏRİ

Əsədov E.S. BİOMÜXTƏLİFLİYİN FORMALAŞMASINDA BAL ARILARININ ROLU

Ələsgərova Ə.N. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BİTKİ ÖRTÜYÜNDƏ YOVŞAN CİNSİ NÖVLƏRİNİN ROLU VƏ BİOEKOLOJİ XÜSUSİYƏTLƏRİ

Mehdiyeva N.P. NAXÇIVAN FLORASININ DƏRMAN POTENSİALI

Nəbiyeva F.X. ARAZBOYU DÜZƏNLİKLƏRİN FLORASI VƏ BİTKİLİYİNİN MÜASİR VƏZİYYƏTİ

Mustafayeva İ.R., Seyidov M.M., Qasımov H.Z. NAXÇIVAN MUXTAR RESPUBLİKASI FLORASINDA YAYILMIŞ ZİRİNC (*BERBERIS* L.) CİNSİNƏ DAXİL OLAN NÖVLƏR VƏ YABANI BİTKİ MƏHSULLARI

Alverdiyeva S.M., Sohrabi M. NAXÇIVAN ƏRAZİSİNDƏ RAST GƏLİNƏN MARAQLI ŞİBYƏ NÖVÜ

Mövsümova N.V., Öztürk M. NAXÇIVAN MR DUZDAĞ ƏRAZİSİ FLORASININ NADİR VƏ İTMƏK ÜZRƏ OLAN NÖV MÜXTƏLİFLİYİNİN MONİTORİNQİ

Muxtarova Ş.C., Qəhramanov S.H., Muradova A.B., Mamanazarova K.S. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONTİNENTAL SUTUTARLARINDA SAPROFİT YOSUNLARIN YAYILMASI

Məmmədova A.V., Batan N. NAXÇIVAN MR ƏRAZİSİNDƏ YAYILMIŞ BƏZİ NADİR YARPAQGÖVDƏLİ MAMIR NÖVLƏRİ VƏ ONLARIN BİOEKOLOJİ XÜSUSİYYƏTLƏRİ

Rəhimova S.Ə., Hidayətzadə F. NAXÇIVAN MR ƏRAZİSİNDƏ BİTƏN BƏZİ ALÇA SORTLARININ ANTİOKSİDANT AKTİVLİYİNİN TƏDQİQİ

Seyidova H.S., Ağayeva D.N. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ QASTEROİD GÖBƏLƏKLƏRİ

Həsənov S.R.ŞNİTT (*A. SCHOENOPRASUM* L.) SOĞAN NÖVÜNÜN EKOLOGİYASI, HƏYAT STRATEGİYASI VƏ SƏMƏRƏLİ İSTİFADƏSİ

Məmmədova G.N. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ GÖYÜNLƏR (*DIPTERA, TABANIDAE*) FAUNASINA ƏLAVƏ EDİIMİŞ YENİ NÖVLƏR

Mehdiyeva A.S. NAXÇIVAN FLORASINDA YAYILAN *OROBANCHE* L. CİNSİ NÖVLƏRİ

Cabbarlı A.A., Babayev H.Q. QLOBAL İQLİM DƏYİŞİKLİYİNİN NAXÇIVAN MR-İN BİOMÜXTƏLİFLİYİNƏ TƏSİRİ

Babayeva S.R., Qənbərov D.Ş. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DAĞ-KSEROFİT VƏ BOZQIR BİTKİLİYİNDƏ GÜLÇİÇƏKLİLƏR FƏSİLƏSİNİN BƏZİ ODUNCAQLI NÖVLƏRİNİN MÜHAFİZƏSİ

Məhərrəmov M.M., Məhərrəmli A.M. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ARIKİMİLƏR FAUNASININ MÜASİR VƏZİYYƏTİ

Əliyeva A.M. NAXÇIVAN MR FLORASININ ÇALXANQALA ƏRAZİSİNDƏ *NASTURTIUM OFFICINALE* R. BR. NÖVÜ

Baxşəliyeva S.Y. NAXÇIVAN MUXTAR RESPUBLİKASI ŞƏRAİTİNDƏ KOKSİDİLƏRİN HİND QUŞLARINDA MÖVSÜMDƏN ASILI OLARAQ YAYILMA DİNAMİKASI

Məmmədov İ.B., Fətullayev P.Ü. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ BİOMÜXTƏLİFLİYİ - QAFQAZ BƏBİRİ (*PANTHERA PARDUS TULLIANA*)

Zeynalova G.H. NAXÇIVAN MUXTAR RESPUBLİKASI ŞƏRAİTİNDƏ TORPAQLARIN KİMYƏVİ ANALİZİ

İsmayılova G.O., Məmmədova S.S. NAXÇIVANDA BİTƏN QARAĞAT RƏVƏNDİ (*RHEUM RIBES* L.) BİTKİSİNİN ƏHƏMİYYƏTİ, İSTİFADƏ SAHƏLƏRİ VƏ PROBLEMLƏRİ

Otlaq və biçənəklərin bərpasında mövcud yanaşmalar, sistemli otarılma və bəslənmə

Qurbanov E.M., Əsədova K.A MİL DÜZÜNÜN BİTKİ ÖRTÜYÜNÜN QORUNMASI VƏ SƏMƏRƏLİ İSTİFADƏSİ YOLLARI

Əhmədova S.Z. CEYRANÇÖL-ACINOHUR QIŞ OTLAĞININ ƏSAS TƏBİİ EKOSİSTEMLƏRİ VƏ ONLARIN BİTKİ VAHİDLƏRİ

Məmmədova Z.C. AZƏRBAYCANIN (LƏNKƏRAN VƏ ASTARA) DÜZƏN MEŞƏLƏRİNDƏ PAXLALI AĞAC VƏ OT BİTKİLƏRİNİN ƏMƏLƏ GƏTİRDİYİ BİTKİ QRUPLAŞMALARI

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ARIKİMİLƏR FAUNASININ MÜASİR VƏZİYYƏTİ

Məhərrəmov M.M., Məhərrəmli A.M.
Naxçıvan Dövlət Universiteti
E-mail: mahirmeherremov@ndu.edu.az

Qədim dövrlərdən insanlar arıların öyrənilməsinə cəlb edilmişdir. Arılar günün işıqlı vaxtlarında hərəkətdə olan və çiçəkləri ziyarət edən canlılardır. Onların davranışlarını öyrənən hər kəs arıları cəlbedici hesab etməlidir, çünki onlar isti günəşli mövsümlərdə və günün müəyyən vaxtlarında işləyirlər. Sahədəki işləri və iybilmə qabiliyyətləri istənilən tədqiqatçını onlarla işləməyə cəlb edə bilir. Bundan əlavə, arılar həm yabanı, həm də mədəni bitkilərin mühüm tozlandırıcılarıdır. Bəzi növləri faydalı məhsullar, xüsusilə bal və mum hazırlayır. Praktik əhəmiyyətindən başqa onlar valehedici varlıqlardır. Qida və yuva materialları tapmaq, uzun məsafələrdən yuvaya gətirmək qabiliyyəti, resursların harada tapıldığını xatırlamaq və onlara qayıtmaq bacarığı, başqalarının yuvalarını soymaq qabiliyyəti, qarşılıqlı əlaqələri və kommunikasiyaları uzun müddətdir maraq mövzusu olmuşdur. Arılarla bağlı tədqiqatlar qədim dövrlərdən başlasa da, sistemli şəkildə öyrənilməsi XVII əsrin ikinci yarısına təsadüf edir.

Hazırda dünya faunasında apiformeslərin 6 fəsiləyə, 509 cinsə mənsub 19875 növü, Palearktikada 112 cinsə mənsub 5025 növü vardır (3). Azərbaycanda isə 6 fəsiləyə, 44 cinsə mənsub 700 növü qeyd edilmişdir (2).

Naxçıvan Muxtar Respublikasının təbii-coğrafi şəraiti, landşaft müxtəlifliyi, bitki örtüyü, zonallıq və s. zəngin fauna biomüxtəlifliyinin formalaşmasını şərtləndirən əsas amillərdir. Hələ keçən əsrin ilk illərindən ərazinin faunası bir çox təbiətşünasların və kolleksiyaçıların diqqətini özünə cəlb edə bilmişdir. Ötən müddət ərzində bölgədə faunanın sistemli və ardıcıl tədqiqi nəticəsində elm və xalq təsərrüfatının inkişafı üçün dəyərli nəticələr əldə edilmişdir. Bununla belə, yerüstü ekosistemlərdə baş verən mürəkkəb bioloji proseslərdə üstün fəaliyyətləri ilə fərqlənən arıkimilər faunası, Azərbaycanın digər bölgələrindən fərqli olaraq onun ayrılmaz hissəsi olan Naxçıvan diyarında yalnız son illərdə əsaslı tədqiqat obyekti olmuşdur. Naxçıvan Muxtar Respublikasında arıkimilərin əsaslı tədqiqinə tərəfimizdən 2004-cü ildən başlanılmışdır və hal-hazırda da davam etdirilir.

2004-2009-cü illərin tədqiqat nəticələrinə əsasən Naxçıvanın arıkimilər faunası 335 növdən ibarət olmuşdur (1). Son illər aparılan tədqiqatlar zamanı *Colletidae, Andrenidae, Megachilidae* və *Apidae* fəsilələrinin növ tərkibində dəyişikliklər olmuşdur. Belə ki, *Colletidae* - 9, *Andrenidae* - 4, *Megachilidae* - 87, *Apidae* fəsiləsinə isə 3 növ əlavə olunmuşdur. Hazırda muxtar respublikanın arıkimilər faunası 6 fəsiləyə, 44 cinsə mənsub olan 438 növdən ibarətdir (4,5,6).